İslam Ağayev

İslam Məmməd oğlu Ağayev (20 avqust 1932-ci il, Bülbülə, Bakı - 27 yanvar 2014-cü il, Bakı) — Azərbaycan ədəbiyyatşünası, filologiya elmləri doktoru, professor, yazıçı, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü.

İslam Ağayev	
Doğum tarixi	20 avqust 1932
Doğum yeri	Bülbülə, Bakı
Vəfat tarixi	27 yanvar 2014 (81 yaşında)
Vəfat yeri	Bakı
Fəaliyyəti	yazıçı

Həyatı

İslam Məmməd oğlu Ağayev 1932-ci il avqust ayının 20-də Bakının Bülbülə qəsəbəsində anadan olmuşdur. İlk təhsilini Bülbülədə 79, 208 və Sabunçu rayonundakı 51 nömrəli fəhlə-

gənclər məktəbində almışdır. 1952–1957–ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır.

1957–1960-cı illərdə Azərbaycan Dövlət kitabxanasında baş biblioqraf işləmişdir. 1960-cı ilin iyun ayında Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutuna kiçik elmi işçi vəzifəsinə dəvət edilmişdir.

1964-cü ildə "Satirik Zənbur jurnalı" mövzusunda namizədlik, 1984-cü ildə "Molla Nəsrəddin" jurnalı və XX əsrin əvvəlləri Azərbaycan Ədəbiyyatının ideya - bədii inkişafı problemləri" mövzusunda elmlər doktoru dərəcəsi adı almaq üçün dissertasiya müdafiə etmişdir.

Bu vaxta kimi, XIX əsrin sonları – XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və dövri mətbuatının tarixi, şəxsiyyətləri, ideya və nəzəri problemləri mövzusunda 15 kitabi, 150-dən artıq məqaləsi dərc edilmişdir. Hazırda çap olunmaqda olan çoxcildli "Azərbaycan ədəbiyyatı tarixi" kitabının müəlliflərindən biridir.

1976–1987-ci illərdə dərc edilmiş 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"nın əsas məqalə və 2004–2005-ci illərdə dərc edilmiş 2 cildlik "Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası"nın baş redaksiya heyətinin üzvü və əsas məqalə müəlliflərindəndir.[1]

27 yanvar 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Elmi əsərləri

1. Azərbaycan kitabı (1870 – 1920-ci illərdə nəşr olunmuş Azərbaycan çap kitabının biblioqrafiyası). (Müəlliflərdən biri). Bakı, 1963.
2. Satirik "Zənbur" jurnalı. Bakı. Elmlər Akademiyasının nəşr. 1969.
3. Cəlil Məmmədquluzadə (həyatı və yaradıcılığı) (Müəlliflərdən biri). Bakı, "Elm" nəşr. 1974.
4. "Molla Nəsrəddin"in poetikasi" Bakı, "Elm" nəşr. 1985.
5. ""Molla Nəsrəddin"in tarixi hünəri" Bakı, "Bilik" nəşr. 1976.
6. Əliqulu Qəmgüsar (həyatı və yaradıcılığı), Bakı, "Elm" nəşr.1976.
7. Əli Razi Şamçızadə (həyatı və yaradıcılığı, əsərlərindən seçmələr), Bakı, "Elm" nəşr. 1992.
8. Azərbaycan Xalq Cumhuriyyəti (Müəlliflərdən biri), Bakı, "Elm" nəşr. 1998.
9. Əlabbas Müznib (həyatı, yaradıcılığı, mübarizəsi), Bakı, "Elm" nəşr. 2000.
10. XX əsrin əvvəllərində Azərbaycan şeri. Bakı, "Elm" nəşr. 2002.
11. Əliabbas Müznib (həyatı, yaradıcılığı, əsərlərindən seçmələr), Bakı, "Elm" nəşr. 2005.

12. "Molla Nəsrəddin" – 100. (Azərbaycan və rus dillərində) Bakı, "Elm" nəşr. 2006.
13. Ədəbiyyat, mətbuat və publisistika problemləri. (Məqalələr toplusu), Bakı, "Elm" nəşr. 2006.

Bədii əsərləri

"Arzu" adli ilk şeri 1953-cü ilin 17 iyununda Azərbaycan Dövlət Universitetinin çoxtirajlı qəzetində çıxmışdır. Sonrakı illərdə "Gənclik nəğmələri" (1957), "Tər çiçəklər" (1959), "Duyğular" (1960) adlı ədəbi almanaxlarda hekayələri dərc edilmişdir.

İslam Ağayev 1958–1960–cı illərdə Azərbaycan Dövlət Radio və Televiziya Komitəsində və "Bakı" axşam qəzetində rəsmi ştatdankənar müxbir olmuşdur. O, 20-ci əsrin sonlarından başlayaraq bədii yaradıcılıqla müntəzəm məşğul olmuş, azyaşlı uşaqlar üçün "Tez böyümək istəyirəm" (1977) və "Dostunu yaxşı tanı" (1981) adlı hekayə kitablarını, mənsur şerlərindən ibarət "Ayrılıq düşüncələri" (1995), "Salam olsun" (1997), "Sirli dünya" (2000), "Tale çiçəkləri" (2002),"Xəzan yarpaqları" (2007) kitablarını çap etdirmişdir. Bu illərdə onun "Azərbaycan gəncləri", "Ədəbiyyat qəzeti" və "Kredo" qəzetlərində bir sıra hekayə bə şerləri çıxmışdır.

Haqqında

1. Seyfəddin Rzasoy. İslam Ağayev: Ömür bə yaradıcılıq etüdləri, Bakı, "Tural – Ə" nəşr. 2002, 123 səh.
2. İslam Ağayevin elmi və bədii yaradıcılığı. (Məqalələr məcmuəsi), Bakı, "Qarabağ" nəşr. 2009, 323 səh.

İstinadlar

1. *Azərbaycanın tanınmış şair və yazıçısı vəfat etdi — **day.az** saytı (http://news.day.az/culture/462249.html)*

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=İslam_Ağayev&oldid=6219800"

Sonuncu redaktə 21 saat əvvəl BalacaBot tərəfindən edilib

Vikipediya